# Azərbaycan dostluq və əməkdaşlıq ünvanıdır

**Dünyanın yeni geosiyasi sərhədlərinin cızıldığı, yeni güclərin formalaşdığı bu təlatümlü dövrdə Azərbaycan sözün əsl mənasında sabitlik, təhlükəsizlik, inkişaf, dostluq və əməkdaşlıq ünvanı kimi xüsusi diqqət çəkir. Ölkəmizin bu vacib pilləyə yüksəlməsini şərtləndirən başlıca amil isə Prezident İlham Əliyevin yürütdüyü uzaqgörən, dərin təhlillərə əsaslanan və praqmatik siyasətidir.**

Bu reallıqdır ki, Azərbaycan geosiyasi maraqların toqquşduğu elə bir coğrafiyada yerləşir ki, burada balansı gözləmək, qonşu ölkələrlə münasibətləri pozmadan tarazlığı saxlamaq olduqca çətindir. Belə mürəkkəb vəziyyətdə obyektiv siyasət yürütmək xüsusi səy, qətiyyət və iradə tələb edir və bütün bunları bacarmaq əsl qəhrəmanlıq kimi səciyyələndirilməlidir. "Mən Azərbaycanın təhlükəsizliyinə, inkişafına və sabitliyinə cavabdehəm. Bunun üçün nə lazımdırsa, prinsiplər əsasında edirəm və biz heç vaxt düzgün, doğru və qanuni hesab etmədiyimizi etmirik. Beynəlxalq hüquq baxımından mükəmməl hesab etmədiyimiz bir şey etmirik. Çünki başqalarının pozmamasını istədiyiniz qaydaları özünüz pozursunuzsa, bu, susuz səhraya aparan yolun sadəcə başlanğıcıdır və digər qonşularla da eynidir". Dünyanın müharibələrin, münaqişələrin çəngində çabaladığı bu təlatümlü dövrdə xalqımızın, dövlətimizin milli maraqlarının təmin edilməsi adına yürütdüyü uzaqgörən və hərtərəfli siyasətin formulunu isə Prezident İlham Əliyev ötən ilin aprelində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forumda bu sözlərlə açıqlamışdı.

## Erməni məkri

Qazandığı parlaq qələbəsi ilə ərazi bütövlüyünü, suverenliyini təmin edən və separatizmə son qoyan Azərbaycan faktiki olaraq Cənubi Qafqazın münaqişə ocağına çevrilməsi potensialını da sıfra endirib. Halbuki qərəzli Qərb siyasi dairələrinin bu bölgədə ayırıcı xətlər yaratmaq, regionu münaqişə, müharibə meydanına çevirmək kimi planlar cızması da məlumdur. Ancaq Azərbaycanın barışa, rifaha, tərəqqiyə köklənən siyasətindən bir addım belə kənara atmayaraq qlobal miqyaslı problemlərin həlli üçün də effektiv işlər görməsi bəlli həqiqətdir. Ölkəmizin enerji, nəqliyyat qovşağına çevrilməsi, qlobal problemlərin həllində aktiv rol oynaması, XXI əsrdə hələ də hökm sürən müstəmləkə siyasətinə qarşı mübarizə aparması, bir sözlə, dünyanın yeni və ədalətli düzəninin qurulması uğrunda səyləri beynəlxalq miqyasda da etiraf olunan reallıqdır.

Lakin Azərbaycana qərəz, düşmənçilik güdənlər respublikamızın əldə etdiyi bütün bu uğurlara kölgə salmaq üçün əllərinə düşən hər fürsətdə ölkəmizə qarşı qarayaxma kampaniyası aparmaqdan əl çəkmirlər. Bunu İsrail və İran arasında baş verən qarşıdurmanın fonunda da aydın müşahidə etmək mümkündür. Belə ki, faktiki olaraq Ermənistanda Azərbaycana qarşı hibrid və açıq şəkildə informasiya müharibəsi aparılır. Sosial şəbəkələrin erməni seqmentinə nəzər saldıqda görürük ki, onlar bu qarşıdurma ətrafında da manipulyasiyalar edirlər və ölkəmizi hədəf alan qarayaxma kampaniyası aparırlar. Ermənilər xüsusilə "Teleqram" kanallarında İsrailin guya Azərbaycan ərazilərindən istifadə etməsi barədə günlərdir dezinformasiya yayırlar. Təbii ki, bu məlumatların hamısı feyk xarakter daşıyır və heç bir fakta əsaslanmır. Çünki bütün bunlar növbəti erməni saxtakarlığı, hay toplumunun xəstə təfəkkürünün məhsuludur.

Həm erməni revanşistlərin, həm Ermənistan hakimiyyətinə yaxın sosial şəbəkə seqmentlərinin Azərbaycana qarşı apardıqları bu hibrid müharibə, dezinformasiya savaşı dildə sülh tərəfdarı olan İrəvanın, əslində, hələ də Azərbaycana düşmənçilik güddüyündən və əsla barış istəmədiyindən xəbər verir.

Azərbaycanın düşmənləri yaxşı bilirlər ki, Bakının İsraillə münasibətləri hər zaman yaxşı olub. Eləcə də İranla. Xüsusilə son dövrlər qonşu İranla münasibətlərimiz inkişaf mərhələsinə qədəm qoyub. Buna görə də müxtəlif çirkin yollarla ölkələrimiz arasında nifaq salmağa çalışırlar.



## Bakı dialoqun tərəfdarıdır

Bakı İran ilə İsrail arasında baş verən bu qarşıdurmanı arzuolunmaz hesab edir. Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında da bu öz əksini tapıb: "Vəziyyətin gərginləşdirilməsini qəti şəkildə pisləyərək, tərəfləri mövcud fikir ayrılıqlarını yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, dialoq və diplomatik yollarla həll etməyə çağırırıq...

...Yaxın Şərqdə vəziyyətin daha da gərginləşməsinin qarşısını almaq məqsədilə diplomatik yollarla təmasların və müvafiq beynəlxalq mexanizmlər çərçivəsində səylərin davam etdirilməsi əhəmiyyət kəsb edir".

Azərbaycan heç zaman öz ərazisində qonşu dövlətlərə qarşı hər hansı neqativ fəaliyyətin həyata keçirilməsinə icazə verməyib. Bu gün də Bakı bu mövqeyini qətiyyətlə sərgiləyir.

İyunun 14-də xarici işlər naziri Ceyhun Bayramov ilə İranın xarici işlər naziri Seyid Abbas Ərağçi arasında baş tutan telefon danışığı zamanı ölkəmizin XİN rəhbəri Azərbaycan ərazisinin hər hansı bir ölkə tərəfindən üçüncü ölkəyə, o cümlədən qonşu və dost İrana qarşı istifadə edilməsinin mümkün olmadığını vurğulayıb.

İndiyə qədər də İranla bağlı heç bir kampaniyaya qoşulmayan Azərbaycan qonşu İranla münasibətlərə həmişə xüsusi diqqətlə yanaşıb. Son dövrlər iki qonşu ölkə arasında münasibətlərin inkişafı, İran Prezidenti Məsud Pezeşkianın Azərbaycana səfəri də aparılan bu siyasətin bariz təzahürüdür.

İsrail-İran qarşıdurmasında Azərbaycan birmənalı mövqe sərgiləyir və məsələnin diplomatik səylərlə çözümünü yeganə həll yolu kimi görür.

İyunun 14-də Prezident İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla telefon danışığı zamanı da İran və İsrail arasında vəziyyətin gərginləşməsi ilə bağlı narahatlıq ifadə olunub. Dövlət başçıları gərginliyin tezliklə aradan qaldırılmasının vacibliyini qeyd edərək, məsələlərin danışıqlar yolu ilə həllinin önəmini vurğulayıblar. Göründüyü kimi, təcavüzkar Ermənistan yenə öz köhnə ampluasındadır və Azərbaycana şər, böhtan atmaqla, qara yaxmaqla məşğuldur. Ancaq ermənilərin bütün bu məkrli cabaları hədərdir və erməni saxtakarlığı həmişə olduğu kimi, indi də fiaskoya məhkumdur.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 20 iyun (№ 125).- S.6.